**Tapşırığın adı:** İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR SAHƏSİNDƏ İNSTİTUSİONAL İNKİŞAF ÜZRƏ KOORDİNATOR

**İcra olunduğu yer:** Azərbaycan Respublikasının Təhsil Nazirliyi

**İcra müddəti:** aprel 2015 – mart 2016

**Tapşırıq və Vəzifələr:**

• Təhsil Nazirliyinin icra qurumlarının, dövlət ali və orta ixtisas təhsil müəssisələrinin ictimaiyyətlə əlaqələr xidmətlərinin institusional inkişafı ilə bağlı təkliflər planlarının hazırlanması; bununla əlaqəli fərdi və fokus qruplarla tələbatların öyrənilməsi məqsədilə müsahibələrin və təhlillərin aparılması;

• Kadr potensialının gücləndirilməsinə xidmət edəcək təlimlərin, seminarların, brifinqlərin, dəyirmi masaların və diskussiyaların təşkili;

• Dövlət təhsil qurumlarının və təhsil müəssisələrinin ictimaiyyətlə əlaqələr xidmətlərinə təlim planlarının inkişafında köməklik göstərilməsi;

• İctimaiyyətlə əlaqələr sahəsinə aid layihələrin əlaqələndirilməsi;

• Dövlət təhsil qurumlarının ictimaiyyətlə əlaqələr sahəsində uğurlu təcrübələrinə aid məqalələrin və analitik yazıların hazırlanması;

• Dövlət təhsil qurumlarının və təhsil müəssisələrinin ictimaiyyətlə əlaqələr xidmətlərinin vətəndaş birlikləri və sosial şəbəkələrlə iş, komandaların formalaşması, təşkilatı və ünsiyyət bacarıqları sahəsində peşəkarlıqlarının inkişafı;

• Dövlət təhsil müəssisələrindəki ictimaiyyətlə əlaqələr mütəxəssisləri ilə birgə fəaliyyətin təşkili;

• İctimaiyyətlə əlaqələrin institusional inkişafı sahəsində fəaliyyət göstərən peşəkarlar şəbəkələri ilə təcrübə mübadiləsi məqsədi ilə tərəfdaşlığın inkişafı.

**İxtisas tələbləri:**

• Jurnalistika, filologiya, idarəetmə və digər humanitar elmlər üzrə ali təhsili;

• İctimaiyyətlə əlaqələr sahəsində ən azı 5 il iş təcrübəsi;

• İnstitusional potensialın gücləndirilməsi sahəsində iş təcrübəsi olan şəxslərə üstünlük veriləcək;

• Azərbaycan və rus dillərində mükəmməl, ingilis dilində isə orta səviyyədə dil bacarığı;

• Kompüter bilikləri.

Müraciət forması:

Maraqlanan şəxslər vakansiyanın adını göstərməklə tərcümeyi-halı (CV) y.manafova@edu.gov.az

ünvanına göndərə bilər.

**Son təqdim edilmə tarixi:** 02 mart 2015-ci il, saat 18:00-dək

**Əlaqə üçün məlumat:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

AZ1025, Bakı şəhəri, Nobel prospekti, 15.

Əlaqə telefonları: (99 412) 488 66 47/48; Faks: (99 412) 488 66 49

E-poçt: y.manafova@edu.gov.az